BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№2 Sosial-siyasi elmlər seriyası 2013*

## POLİTOLOGİYA

UOT 327.7

# QLOBALLAŞMA PROSESİNDƏ İNSAN HAQLARI VƏ DEMOKRATİKLƏŞMƏ PROBLEMLƏRİ

**R.B.DADAŞOVA**
***AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu***
***dadashova.ramila@rambler.ru***

*Müəllif demokratikləşmənin daxili və xarici amillərini təhlil edir və göstərir ki, müasir dövrdə ABŞ qloballaşma amilindən istifadə edərək, demokratiyanı yaymaq və insan hüquqlarını müdafiə etmək pərdəsi altında özünün maraqları olduğu dövlətlərin daxili işlərinə müdaxilə edir və saxta demokratik dövlətlər yaradır. Məqalə müəllifi, eyni zamanda, insan hüquqları barədə qəbul edilən hüquqi sənədləri təhlil edir, qloballaşmanın insan hüquqlarının müdafiəsinə müsbət və mənfi təsirlərini araşdırır. Məqalənin sonunda müəllif bəzi təkliflər irəli sürür.*

**Açar sözlər:** qloballaşma, demokratiya, insan hüquqları, beynəlxalq konvensiyalar, birqütblü dünya, beynəlxalq münasibətlər sistemi

Qloballaşma insan hüquqlarına və demokratiyaya həm müsbət, həm də mənfi istiqamətdə təsir göstərir. Qloballaşma müsbət istiqamətdə insan hüquqlarının və demokratiyanın ümumbəşəri dəyər kimi formalaşmasına, bu sahədə maarifləndirilmənin artmasına və təcrübənin paylaşmasına təsir edir. Qloballaşmanın insan hüquqlarına və demokratiyaya mənfi təsiri isə ondan ibarətdir ki, qloballaşmadan bəhanə kimi istifadə edən ABŞ digər dövlətlərin daxili işlərinə müdaxilə edir.

1975-ci ildə ATƏM-in (1995-ci ildən ATƏT adlanır.) Helsinki Yekun Aktında əksini tapan insan hüquq və azadlığına hörmət prinsipinə müvafiq olaraq dövlətlər insan hüquqlarına hörmət etməli və buna beynəlxalq səviyyədə dəstək verməlidirlər. İnsan hüquqlarına hörmət prinsipi ilk dəfə olaraq BMT Nizamnaməsində ümumi formada təsbit olunmuş, sonralar bir sıra mühüm beynəlxalq sənədlərdə, o cümlədən 1948-ci il İnsan Hüquqları barədə bəyannamədə dəqiqləşdirilmişdir. İnsan hüquqları barədə sənədlər içərisində BMT-nin 5 əsas sənədi xüsusi yer tutur: 1948-ci il 10 dekabr tarixli İnsan hüquqları barədə bəyannamə, 1966-cı il 16 dekabr tarixli İqtisadi, sosial və mədəni hüquqlar barədə konvensiya, 1966-cı il 16 dekabr tarixli Vətəndaş və siyasi hüquqlar

barədə konvensiya və sonda adı çəkilən konvensiyaya əlavə iki protokol. İqtisadi, sosial və mədəni hüquqlar haqqında konvensiyaya yaşayış yeri, təhsil, səhiyyə hüquqları daxildir. Vətəndaş və siyasi hüquqlar haqqında konvensiyaya işgəncə və əsassız edamların qadağan olunması, özbaşına həbslərdən müdafiə, söz, mətbuat, din azadlıqları kimi ənənəvi azadlıqlar daxildir. 1976-cı ildə hüquqi qüvəyə minən Vətəndaş və siyasi hüquqlar haqqında konvensiyanın qeyri-məcburi əlavəsi olan I protokola görə pakta qoşulan dövlətlərdə insan hüquqlarının pozulması ilə əlaqədar BMT-yə fərdi şikayətlər edilə bilər. 1991-ci ildə hüquqi qüvvəyə minən Vətəndaş və siyasi hüquqlar haqqında konvensiyanın qeyri-məcburi əlavəsi olan II protokola qoşulan dövlətlər ölüm hökmünün ləğvi üçün bütün zəruri tədbirlərin görülməsini öz öhdələrinə götürdülər.

İnsan hüquqları barədə bəyannaməyə görə hər bir fərd yalnız onun şəxsiyyət kimi tam və azad inkişafının mümkün olduğu cəmiyyət qarşısında vəzifələr daşıyır. İnsan hüquqlarının ən başlıcası özbaşınalıq və zorakılığa məruz qalmamaq hüququdur. 1948-ci il İnsan hüquqları barədə ümumi bəyannamənin 5-ci maddəsində deyilir: “Heç kəs onun ləyaqətini alçaldan qeyri-insani müraciətə və cəzaya düçar edilməməlidir (4, 3). İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında konvensiyanın 3-cü maddəsində deyilir: “Heç kəs işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır” (3, 2). 4-cü maddənin 1-ci bəndində “Heç kəs köləlikdə və asılılıqda saxlanmamalıdır”, 2-ci bəndində “Heç kəs məcburi və ya icbari əməyə cəlb olunmamalıdır” ifadələri əksini tapmışdır (3, 3).

BMT Nizamnaməsinin 1-ci maddəsinin 3-cü bəndində deyilir: “İqtisadi, sosial, mədəni və ya humanitar xarakterli beynəlxalq problemlərin həll edilməsində və irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsində və həvəsləndirilməsində beynəlxalq əməkdaşlığa nail olmaq və bu ümumi məqsədlərə çatmaq üçün millətlərin hərəkətlərini uzlaşdırmaq üçün mərkəz rolunu oynamaq”. 55-ci maddədə BMT-nin insan hüquq və azadlıqlarına hörmət edilməsində dəstək olması bir daha təsdiq edilir. 56-cı maddədə isə deyilir: “Təşkilatın bütün üzvləri 55-ci maddədə göstərilmiş məqsədlərə nail olmaq üçün Təşkilatla əməkdaşlıqda birgə və müstəqil hərəkət etməyi öhdəliklərinə götürürlər”.

Beynəlxalq sənədlər silahlı münaqişələrdə vətəndaşların hüquqlarının qorunmasında vacib mexanizmdir və bu sənədlər insan hüquqlarının qorunması istiqamətində Təhlükəsizlik Şurasına kömək edə bilər. Lakin yuxarıda adı çəkilən beynəlxalq sənədlərlə yanaşı, insan hüquqlarına hörmətlə birbaşa bağlı olan bir çox konvensiyalar – Quru müharibəsinin qanun və adətləri haqqında 1907-ci il Haaqa konvensiyası, Müharibə qurbanlarının müdafiəsinə dair 1949-cu il Cenevrə konvensiyaları və ona I əlavə protokol, 1954-cü il Silahlı münaqişə hallarında mədəni dəyərlərin müdafiəsi barədə konvensiya, 1999-cu il ona əlavə protokol, Ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə olunmasının qadağan edilməsi haqqında 1976-cı il konvensiyası, Adi silahların konkret növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında 1980-ci il konvensiyası BMT-nin üzvü olan Rusiyanın dəstəklədiyi Ermənistan və ABŞ-ın dəstəklədiyi

İsrail tərəfindən dəfələrlə pozulmuşdur. Ermənistanın Azərbaycana qarşı, eləcə də İsrailin Fələstinə qarşı törətdiyi cinayətlərin hüquqi mühakiməsini həyata keçirmək məqsədilə Xüsusi Tribunalın yaradılması Təhlükəsizlik Şurasının Beynəlxalq Məhkəmə, ixtisaslaşmış qurumlar, o cümlədən İnsan hüquqları barədə Şura ilə əməkdaşlığı istiqamətində həyata keçirilə bilər. İlk dəfə bəşəriyyətə qarşı cinayətə görə məsuliyyət 1945-46-cı illərdə Nürnberq beynəlxalq hərbi tribunalında tətbiq edildi. 1945-ci il iyulun 17-dən avqustun 2-dək keçirilən Potsdam konfransında SSRİ, ABŞ və Böyük Britaniyanın hərbi cinayətkarları cəzalandırmağın vacibliyi barədə tövsiyəyə müvafiq olaraq, nasist cinayətkarların siyahısı dərc edildi, ilk Beynəlxalq Hərbi Trbunal noyabrın 20-də Nyurnberqdə işə başladı, 1946-cı il oktyabrın 1-dək işini qurtardı.

2004-cü ildə BMT-nin seçkili strukturlarında Azərbaycan yüksək səviyyədə təmsil olunmuş, Azərbaycanın BMT yanındakı daimi nümayəndəsi Baş Məclisin, İqtisadi və Sosial Şuranın vitse-prezidenti seçilmişdir. Azərbaycan nümayəndə heyətinin ciddi səyləri nəticəsində həmin orqanlarda münaqişələrin gedişində girov götürülmüş qadın və uşaqların, itgin düşmüş şəxslərin vəziyyəti ilə bağlı məsələlər haqqında qətnamələr qəbul edildi (2, 80). Hələ 1995-ci il sentyabrın 15-də Pekində keçirilən 4-cü Ümumdünya qadınlar konfransının yekun sənədinə Azərbaycan nümayəndə heyətinin təkidi ilə aşağıdakı məzmunda müddəa daxil edilmişdi: "Hərbi münaqişələr zamanı qadınların girov götürülməsi qadınlara qarşı zorakılığın formalarından biri hesab edilsin" (1, 333).

2006-cı ildə İnsan hüquqları üzrə Komissiyanın əvəzinə yeni orqan, yəni İnsan hüquqları üzrə Şura yaradılarkən Azərbaycan da səs çoxluğu ilə Şuraya daxil oldu və erməni iddiaları, onun acı nəticələri barədə əsil həqiqətləri dünya birliyinə çatdırmaq imkanları yarandı. 1989-cu il Uşaqların hüquqları haqqında konvensiyanın 4-cü maddəsində deyilir ki, "silahlı münaqişələr zamanı mülki əhalinin qorunması, beynəlxalq hüquq normalarına riayət etmək üçün iştirakçı dövlətlər uşaqların qorunması və onların münaqişə zonasından çıxarılmasını təmin etmək məqsədilə bütün mümkün tədbirlərdən istifadə etməlidir" (8, 17). Hərbi əsirlər, girov və itgin düşmüş şəxslər barədə Azərbaycan Respublikası Dövlət komissiyasının 2008-ci il 1 yanvar tarixli məlumatına görə Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində itgin düşənlərin sayı 4210 nəfərdir. Onlardan 47 nəfəri uşaq, 256 nəfəri qadın, 355 nəfəri qocadır (12, 349).

Beynəlxalq hüquq normalarının inkişafında mühüm rol oynayan İnsan hüquqları barədə bəyannamə 80-dən çox konvensiya və bəyannamənin, o cümlədən 1962-ci il Azlıqların diskriminasiyası və müdafiəsi barədə qətnamənin, Qadınlara qarşı diskriminasiyanın bütün formalarının ləğv edilməsi barədə konvensiyanın, 1966-cı il 16 dekabr tarixli İqtisadi, sosial və mədəni hüquq haqqında beynəlxalq paktın, yenə həmin tarixdə Vətəndaş və siyasi hüquqlar haqqında beynəlxalq paktın, 1989-cu ildə qəbul edilən Uşaqların hüquqları barədə konvensiyanın, İşgəncələr əleyhinə konvensiyanın qəbul edilməsinin əsasını qoymuşdu. Bu konvensyalara müvafiq olaraq 1970-ci ildə İrqi diskriminasiya üzrə komitə, 1982-ci ildə Qadınlara qarşı diskriminasiyanın ləğvi üzrə komitə, 1988-ci ildə İşgəncələrə qarşı komitə 1990-cı ildə Uşaq hüquqları üzrə komitə yaradılmışdır.

BMT 1946-cı ildə İnsan hüquqları üzrə Komissiya yaratdı. İnsan hüquqları üzrə Komissiya Cənubi Afrikada aparteid rejimin devrilməsi, Çili, Qvatemala, Argentina və d. dövlətlərdə demokratik dəyişikliklər etməyə nail oldu. Qeyd etməliyik ki, BMT-nin qəbul etdiyi qərarlar əsasında regional təşkilatlar İnsan hüquqları barədə Amerika konvensiyasını, İnsan və xalqların hüquqlarının müdafiəsi haqqında Afrika xartiyasını, İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Şurası konvensiyasını, ATƏT-in Helsinki Yekun Aktını və s. kimi bəzi sənədləri qəbul etmişlər.

Baş Məclisin 1966-cı il 16 dekabr tarixli Vətəndaş və siyasi hüquqlar haqqında beynəlxalq paktının IV hissəsinə müvafiq olaraq tərkibi iştirakçı dövlətlər tərəfindən öz vətəndaşları sırasından seçilmiş və yüksək əxlaqi keyfiyyətlərə, insan hüquqları sahəsində tanınmış bacarığa malik olan 18 ekspertdən ibarət İnsan hüquqları üzrə Komitə yaradıldı. Baş Məclisin köməkçi orqanı olan bu Komitənin əsas funksiyası iştirakçı dövlətlərin paktda qəbul edilmiş hüquqların həyata keçirilməsinə dair gördükləri tədbirlər barədə məruzələrinə baxmaq, onlara irad tutmaq, iştirakçı dövlətlərin bu və ya digər dövlət tərəfindən götürülmüş öhdəliklərin yerinə yetirilməməsi barədə şikayətlərinə, həmçinin ayrı-ayrı şəxslərin yurisdiksiyası altında olduğu dövlət tərəfindən hüquqlarının pozulması barədə şikayətlərə baxmaq idi.

2005-ci il Ümumdünya Sammitində İnsan hüquqları üzrə Komissiyanın yerinə yeni orqanın yəni İnsan hüquqları üzrə Şuranın yaradılması barədə qərar qəbul edilərkən 170 dövlət qətnamənin lehinə, 4 dövlət – ABŞ, İsrail, Palau və Marşal Adaları əleyhinə səs verdi, 3 dövlət - Belorusiya, İran, Venesuela bitərəf qaldı. Yeni orqanın yaradılmasında məqsəd insan hüquqları sahəsində ikili standartlar, siyasiləşmə, qarşıdurmanın aradan qaldırılması idi. Bəzi dövlətlər Şurada müəyyən meyarlara cavab verən dövlətlərin namizədliyinin irəli sürülməsini təklif etdilər. Bu isə beynəlxalq hüququn jus cogens prinsiplərindən biri olan suveren bərabərlik prinsiplərinə zidd idi. Rusiya Federasiyası könüllü olaraq insan hüquqları sahəsinin fəaliyyətinə ildə 2 milyon dollar verəcəyini bildirərək, İnsan hüquqları üzrə Şuranın Katibliyi vəzifəsini öz üzərinə götürdü. 2006-cı ildə Baş Məclisin qəbul etdiyi 60/251 saylı qətnamədən sonra 47 üzv Şuranın tərkibinə seçildi. Digər iddiaçılar zəruri səs çoxluğu, yəni 96 səs toplamadıqları üçün seçilmədilər. İkinci turda Azərbaycan (95) və Ukrayna (91), üçüncü turda Rumıniya (89) Şuraya daxil edildi. Qalan dövlətlər Albaniya (31), Ermənistan (70), Macarıstan (79), Gürcüstan (35), Latviya (50), Litva (92), Sloveniya (91) kifayət qədər səs toplamadıqları üçün Şuranın tərkibinə daxil edilmədilər. ABŞ, Böyük Britaniya Şuranın yaradılması əleyhinə idilər və ona görə də seçkidə iştirak etmədilər.

Demokratiya xalqın hakimiyyət mənbəyi kimi tanınmasına, dövlət işlərinin həllində iştirak etmək hüququ olmasına və vətəndaşlara geniş hüquq və azadlıqlar verilməsinə əsaslanır. Demokratiyanın əsasını şəxsiyyətin azadlıq hüququ, insanın şəxsiyyətinə hörmət təşkil edir. Siyasi elmdə demokratikləşmə anlayışı iki mənada işlənir. Birincisi, demokratik dünya anlayışı adı altında demokratik dövlətlərin sayı başa düşülür. İkincisi, müxtəlif ölkələrdə demokratik institutların inkişafı və gücləndirilməsi başa düşülür. İkinci yanaşma de-

mokratik dövlət qurmaq prosesi keçən dövlətlər üçün, başqa sözlə, demokratik tranzit dövlətləri üçün xüsusi əhəmiyyət kəsb edir. 1991-ci ildə S.Hantinqton "Journal of demokracy" jurnalında "Demokratikləşmənin üç dalğası" adlı məqaləsində və "XX yüzilliyin sonunda demokratikləşmənin üçüncü dalğası" adlı kitabında demokratik prosesin inkişaf mərhələlərini araşdıraraq demokratikləşmənin üç mərhələsini fərqləndirmişdir. Birinci mərhələ 1820-1920-ci illəri əhatə edir və bu dövrdə yaranan demokrtik ölkələr üçün parlamentin fəaliyyəti, partiya sisteminin, seçki hüququnun olması xarakterikdir. Bir sıra ölkələrdə faşizmin hakimiyyətə keçməsi ilə əlaqədar demokratikləşmə 1920-1940-cı illərdə fasilə vermişdir. Demokratikləşmənin ikinci dalğası 1940-cı illərin ortalarından başlayır və 1960-cı illərin əvvəllərinədək davam edir və bu dövlətlərin demokratikləşməsi II dünya müharibəsində faşizmin məğlub edilməsi və müstəmləkə sisteminin devrilməsi ilə xarakterizə edilir. Bundan sonra bir sıra hərbi və avtoritar rejimlər, o cümlədən 1967-ci ildə Yunanıstanda, 1973-cü ildə Çilidə belə sistemlər yaranması ilə demokratikləşmədə fasilə oldu. Demokratikləşmənin üçüncü dalğası 1970-ci illərin birinci yarısından başlayır və Qərbi Avropanı, Latın Amerikasını, Asiyanı, Şərqi Avropanı, Afrikanı əhatə edir (9, 173).

Demokratiyanın formalaşmasında demokratiyanın yaradılmasıı deyil, demokratiyanın möhkəmləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Ekzogen proseslər, xarici mühit, dünya dövlətlərinin inkişafı, dünya birliyinin hər hansı bir ölkə barədə qərar qəbul etməsi demokratik proseslərə təsir edir. Məsələn, BMT-nin qəbul etdiyi qətnamələr demokratiyanın inkişafına təkan verir. Lakin demokratikləşmədə endogen amillər, daxili mühit, sosial-iqtisadi inkişafın səviyyəsi, cəmiyyətdə siyasi proseslər daha böyük əhəmiyyət kəsb edir. Demokratikləşmənin üçüncü mərhələsində endogen amillər deyil, ekzogen amillər, beynəlxalq mühit mühüm rol oynayır. Demokratiyanın inkişaf etmədiyi dövlətlər izqoy dövlət kimi xarakterizə edilir. Qoballaşma məfhumundan istifadə edən, dünyanı bir qütbdən idarə etməyə cəhd göstərən ABŞ demokratiyanı yaymaq pərdəsi altında belə dövlətlərin daxili işlərinə müdaxilə edərək, qeyri-liberal demokratik, hibrid rejimli, saxta demokratik dövlətlər yaradır. İ.Kantın "əbədi sülh" haqqında tezisinə görə demokratik dövlətlər və qeyri-demokratik dövlətlər beynəlxalq arenada özlərini müxtəlif cür aparırlar. Yəni, demokratik dövlətlər mübahisələrin nizama salınmasında sülh yoluna, mənəvi prinsiplərə üstünlük verirlər. Bəs onda nə üçün ABŞ kimi demokratik ölkə imperialist müharibəsi aparır? 1914-1918-ci illər I Dünya müharibəsi və 1939-1945-ci illərdə baş verən II Dünya müharibəsindən sonra dünyada demokratiyanın əsas daşıyıcısı və təbliğatçısı kimi çıxış edən ABŞ öz mövqeyini möhkəmləndirir və "demokratiya"nı yaymaq və "terrorla mübarizə", "insan hüquq və azadlıqlarının müdafiəsi" pərdəsi altında dünya ölkələrində hegemonluq edir. İndiyə kimi bir çox ölkələrdə bunun şahidi olmuşuq. ABŞ-ın bu siyasətində əsas məqsəd dünyanın iqtisadi baxımdan zəngin və strateji əhəmiyyətli regionlarını ələ keçirməkdir. ABŞ birqütblü dünya yaratmaq üçün aşağıda sadalanan amilləri əsas götürür: a) Dünyanın müxtəlif ölkələrində Qərbə meyl edən, ABŞ-ın dəstəyindən asılı olan elitanın hakimiyyətə gətirilməsi; b) Geopolitik dəstəyi olmayan, ABŞ himayəsinə ehtiyac duyan, özlərini düşmən əha-

təsində hiss edən satellit ölkələrin sayının artırılması; v) Hər anda başını qaldırmağa hazır olan dövlətlərə demokratiyanı yaymaq pərdəsi altında təcavüz etmək (12, 248).

Avrasiya üzərində hökmranlıq etmədən ABŞ dünyada hegemonluq edə bilməz. ABŞ-ın Avrasiyada strateji məqsədləri aşağıdakılardır: birincisi, nadir təbii ehtiyatları "bacarıqsız, barbar əllərdən" alıb "layiqli əllərə" vermək; ikincisi Atlantik okeanı Sakit okeanla birləşdirən keçmiş Böyük İpək yolu məkanında möhkəmlənmək və Avrasiya Mərkəzi Kommunikasiya sistemi üzərində nəzarət etmək; üçüncüsü, Avropa məkanında strateji rəqib olan Çin və Hindistanı birbaşa təhlükədə qoyan açar nöqtələrin ələ alınması. Çünki Çin və Hindistan neytrallaşdırılmadan ABŞ uzunmüddətli hegemon ola bilməz (11, 42). Lakin Amerkanın dünyada liderlikdən imtina edərək hegemonluğa can atması beynəlxalq miqyasda ancaq anarxiyaya gətirib çıxara bilər (5). N.A.Nartov ABŞ-ın Ukrayna, Azərbaycan, Gürcüstan respublikalarının inkişafına köməyini Rusiyanın mərkəzləşdirmə siyasətini zəiflətmək məqsədilə etdiyini bildirir (10, 268). Amerika tədqiqatçıları isə ABŞ-ın enerji ehtiyatları o qədər də çox olmayan Mərkəzi Asiya və Qafqazda strateji maraqlarının olmadığını, onun siyasətinin regionlarda münaqişələri nizamasalmaya yönəldildiyini bildirirlər (6, 241). Z.Bjezinski isə yazır ki, Rusiyanın yenidən güclü dövlət olmasının qarşısını almaq üçün ABŞ yeni müstəqillik əldə etmiş dövlətlərin inkişafına kömək edir (7, 242).

Yuxarıda deyilənləri ümumiləşdirərək, qeyd etmək lazımdır ki, ABŞ dünyanın müxtəlif regionlarında hər anda başını qaldırmağa hazır olan dövlətlərə demokratiyanı yaymaq pərdəsi altında təcavüz edərək özünün dəstəyindən asılı olan elitanın hakimiyyətə gətirilməsinə və həmin regionları nəzarət altında, özündən asılı vəziyyətdə saxlamağa cəhd edir. İraq problemində Səddam Hüseyn, Misir problemində Hüsnü Mübarək, Liviya problemində Müəmmar Qəddafi, Yəmən problemində Əli Abdulla Saleh, Suriya problemində Bəşər Əsəd rejimlərinin devrilməsi ABŞ-ın Avrasiyada hegemonluq etmək siyasətində bəhanədir. ABŞ-ın "diktator rejiminin ləğvi üçün" İraqa qarşı hücumu yalnız terrorun sərhədlərini genişləndirdi. Demokratiyanın təmin olunması üçün zəruri amillər yalnız sabit cəmiyyətlərdə mövcud olur, demokratiya kənardan gətirilə bilməz. Sabitliyin bərqərar olunması ilə demokratiya üçün vacib elementlərin formalaşma prosesi baş verir, bu proses isə milli dövlət tərəfindən tənziımlənməlidir.

**ƏDƏBİYYAT**

1. Azərbaycan BMT ailəsində. Bakı: Elm, 2000, 345 s.
2. Azərbaycan Respublikasının XİN mətbuat katibinin şərhi // Diplomatiya Aləmi Jurnalı, 2004, № 9, s.76-81.
3. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında konvensiya. Bakı: Qanun, 2006, 32 s.
4. Всеобщая декларация прав человека принята и провозглашена резолюцией 217 A(III) Генеральной Ассамблеей от 10 декабря 1948 года.
5. Выбор: глобальное господство или глобальное лидерство. Бжезинский написал очередной труд. 26.09.2004 http://www.centrasia.ru/news
6. Жильцов С.С., Зонн И.С., Ушков А.М. Геополитика Каспийского региона. М.: Международные отношения, 2003, 280 с.

7. Збигнев Бжезинский. Великая шахматная доска (Господство Америки и его геостратегические императивы). Перевод О.Ю.Уральской. М.: Междунар. Отношения, 1998, 255 с. http://www.chat.ru/~scbooks
8. Конвенция ООН; конвенция о правах ребенка. М.: РИОР, 2006, 24 с.
9. Лебедева М.М. Мировая политика: Учебник для вузов. М.: Аспект Пресс, 2007, 365 с.
10. Нартов Н.А. Геополитика: Учебник для вузов / Под ред. проф. В.И.Староверова. М.: Единство 2003, 439 с.
11. Панарин А.Ф. Стратегическая нестабильность в XXI веке. М.: Алгоритм, 2003, 450 с.
12. Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту. Баку: Министерство Иностранных Дел, 2009, 368 с.

## ПРОБЛЕМЫ ПРАВА ЧЕЛОВЕКА И ДЕМОКРАТИЗАЦИЯ В ПРОЦЕССЕ ГЛОБАЛИЗАЦИИ

**Р.Б.ДАДАШОВА**

**РЕЗЮМЕ**

Автор анализирует внутренние и внешние факторы демократизации и показывает, что в современном периоде Соединенные Штаты Америки, используя фактор глобализации вмешиваются во внутренние дела государств под предлогом распространения демократии и защиты прав человека и создают ложные демократические государства. Автор статьи, также анализирует правовые документы по правам человека, положительные и отрицательные последствия глобализации по защите прав человека. В заключении были подведены научные результаты, касающиеся данной проблемы.

**Ключевые слова:** глобализация, демократия, права человека, международные конвенции, однополярный мир, система международных отношений

## THE PROBLEMS OF HUMAN RIGHTS AND DEMOCRATIZATION IN THE PROCESS OF GLOBALISATİON

**R.B.DADASHOVA**

**SUMMARY**

The author analyses domestic and foreign factors of democratization and shows that USA, using the factor of globalisation, interferes to internal affairs of states under the curtain of spreading democracy and defending human rights and creates false democratic states. At the same time, the author analyses legal documents accepted about human rights, investigates positive and negative influences of the globalisation to defence of the human rights.

**Key words:** globalisation, the system of democracy, human rights, international conventions, unipolar world, international relations